# Üzeyir Hacıbəyov mükafatı



Onu da qeyd etməliyik ki, Üzeyir mükafatına unudulmaz sənətkarlarımız Süleyman Ələsgərov, maestro Niyazi və Şıxəli Qurbanov layiq görülmüşlər. (Üzeyir Hacıbəyli ensiklopediyası. Bakı: Şərq-Qərb, 2008, Səh.61).

Bu mükafatın əvəzinə müasir dövrdə Azərbaycan Bəstəkarlar ittifaqı tərəfindən "Üzeyir Hacıbəyli" medalı təsis olunub. "Üzeyir Hacıbəyli" medalı ilk olaraq ölkəmizin Birinci vitse-prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri və "Üzeyir dünyası" layihəsinin rəhbəri hörmətli Mehriban Əliyevaya verilib. Sonra isə musiqi sahəsindəki xidmətlərinə və Üzeyir irsinin tədqiqi və təbliğinə görə Əməkdar incəsənət xadimi, Əməkdar elm xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, akademik Zemfira Səfərova, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, UNESKO-nun "Sülh" artisti, Xalq artisti, AMEA-nın müxbir üzvü, professor Firəngiz Əlizadə, Xalq artisti, Ü.Hacıbəylinin ev-muzeyinin direktoru Sərdar Fərəcov, xalq yazıçısı Anar və daha bir neçə şəxs Üzeyir medalı ilə təltif olunub.

Onun Azərbaycan dilində ilk "Hesab məsələləri" dərsliyini, mətbuatda istifadə edilən siyasi, hüquqi, iqtisadi və hərbi sözlərin türk-rus və rus-türk dillərində lüğətini yazması musiqidən başqa digər elmi sahəsindəki fəaliyyətinin ifadəsidir. Öz yaradıcılığında publisistikaya da yer verən Üzeyir bəy "Həyat","İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal" qəzetlərində, "Molla Nəsrəddin"jurnalından "Ordan-burdan", "O yan-bu yan" başlıqlarla, "D", "Filankəs" imzaları ilə felyeton və satirik yazılarla dövrünün siyasi-iqtisadi, mədəni həyatında baş verən hadisələrə münasibət bildirərək maarifçilik baxımından da xalqın xidmətində olmuşdur. Üzeyir Hacıbəylinin Şuşada 1885-ci ildə doğulduğu 18 sentyabr gününün ölkəmizdə musiqi günü, musiqi bayramı kimi qeyd olunması əbədiyaşar ömrün nəsillərə də əbədi töhfəsidir. Bu günü elə "Üzeyir günü" də adlandırırlar.

Hər il sentyabrın 18-də Ü.Hacıbəylinin doğum günü ilə bağlı keçirilən təntənəli mərasim Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin "Üzeyir musiqi gününün keçirilməsi haqqında" fərmanı ilə mərasim rəsmi status almışdır. Ü.Hacıbəylinin 110 illik yubileyi ilə bağlı verilən bu fərmanda Azərbaycan musiqi sənətinin inkişafında misilsiz xidmətlərini nəzərə alaraq böyük sənətkara xalq ehtiramını və məhəbbətini təcəssüm etdirmək məqsədilə hər il sentyabr ayının 18-də Üzeyir musiqi gününün keçirilməsi Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə həvalə olunmuşdur. Həmin gün dahi bəstəkarın xatirəsinə həsr edilmiş silsilə tədbirlər respublika miqyasında həyata keçirilir. Bir qayda olaraq Ü.Hacıbəylinin qəbrinin ziyarətolunmasından sonra mərasimin əsas hissəsi Bakı Musiqi Akademiyası qarşısında yerləşən Ü.Hacıbəyli abidəsi önündə cərəyan edir.

(Ü.Hacıbəyli ensiklopediyası. Bakı: Şərq-Qərb,2008, Səh.204



